18 oktyabr Müstəqilliyin Bərpası Günüdür!

41 (1347) 17-23 oktyabr 2024-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet Qiyməti razılaşma yolu ilə Qəzet 1999-cu ildən çıxır


## "2025-ci il dövlət büdcəsi haqqında" Qanun layihəsi Milli Məclisin müzakirəsinə təqdim edilib



Oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" Qanun layihəsini Azərbaycan Respublikasının Milli Məclisinin müzakirəsinə təqdim edib.
Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin gəlir proqnozu 36 milyard 616 milyon manatdan 38 milyard 316 milyon manata, xərc proqnozu isə 39 milyard 667,6 milyon manatdan 41 milyard 367,6 milyon manata yüksəldilib.
Bu barədə Maliyyə Nazirliyinin məlumatında bildirilir.
Qeyd edilib ki, o cümlədən, mərkəzləşdirilmiş gəlirləri 37 milyard 520 milyon 952 min manat, yerli gəlirləri 795 milyon 48 min manat, mərkəzləşdirilmiş xərcləri 40 milyard 567 milyon 265 min manat, yerli xərcləri 800 milyon 335 min manat məbləğində təsdiq edilib.

## Bu il xarici dövlət borcuna büdcədən ödənilən məbləğ açıqlanıb



Cari ilin doqquz ayında dövlət büdcəsinin xərcləri 25 milyard 174,3 milyon manat və ya təsdiq olunmuş proqnoza qarşı 42,2 milyon manat (0,2 faiz) çox icra edilib.
Maliyyə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, hesabat dövründə icrası təmin edilmiş xərclər 2024-cü ilin dövlət büdcəsi xərclərinin 63,3 faizini təşkil edir.
Bu ilin yanvar-sentyabr aylarında dövlət büdcəsi xərclərinin 15 milyard 459,7 milyon manatı və ya 61,4 faizi cari xərclərə (2023-cü ilin eyni dövrü ilə müqayisədə 13 milyard 41,3 milyon manat və ya 9,5 faiz çox), 8 milyard 419,1 milyon manatı və ya 33,4 faizi əsaslı xərclərə (2023-cü ilin eyni dövrü ilə müqayisədə 36,7 milyon manat və ya 0,4 faiz çox), 1 milyard 295,5 milyon manatı və ya 5,2 faizi dövlət borcuna xidmətlə bağlı xərclərə (2023-cü ilin eyni dövrü ilə müqayisədə 581,8 milyon manat və ya 1,8 dəfə çox) yönəldilib.
Həmçinin cari ilin yanvar-sentyabr aylarında dövlət büdcəsinin dövlət borcuna xidmət xərclərindən daxili dövlət borcu üzrə 170,3 milyon manatın (faiz borcu üzrə), xarici dövlət borcu üzrə 1 milyard 125,2 milyon manatın (əsas borc üzrə 850 milyon manat, faiz borcu üzrə 275,2 milyon manat), cəmi 1295,5 milyon manatın ödənilməsi təmin edilib.

## Azərbaycanın icmal büdcəsinin profisiti 8,6 milyard manatı ötüb

Maliyyə Nazirliyi 2024-cü ilin yanvar-sentyabr ayları üzrə icmal və dövlət büdcələrinin icrasına (operativ) dair məlumatı açıqlayıb.
Nazirlikdən AZƏRTAC-a bildirilib ki, 2024-cü ilin doqquz ayında dövlət büdcəsinin gəlirləri 27737 milyon manat, xərcləri 25174,3 milyon manat olub, 2562,7 milyon manat məbləğində dövlət büdcəsinin artıqlığı (profisit) yaranıb.

**Dövlət büdcəsinin gəlirləri**

2024-cü ilin doqquz ayı ərzində dövlət büdcəsinin gəlirləri 27683,6 milyon manat proqnoza qarşı 27737 milyon manat təşkil edib ki, bu da proqnozla müqayisədə 53,4 milyon manat və ya 0,2 faiz, 2023-cü ilin eyni dövrü ilə müqayisədə isə 25,6 faiz və ya 5660,6 milyon manat çoxdur.
Azərbaycan Respublikasının Dövlət Neft Fondundan dövlət büdcəsinə transfert nəzərə alınmadan dövlət büdcəsinin gəlirləri 0,3 faiz çox icra edilməklə 18151,3 milyon manat təşkil edib.



## Neft Fondundan dövlət büdcəsinə 9,5 milyard manatlıq transfert edilib

Cari ilin doqquz ayı ərzində dövlət büdcəsinin gəlirləri 27 milyard 683,6 milyon manat proqnoza qarşı 27 milyard 737 milyon manat təşkil edib ki, bu da proqnozla müqayisədə 53,4 milyon manat və ya 0,2 faiz, 2023-cü ilin eyni dövrü ilə müqayisədə isə 25,6 faiz və ya 5 milyard 660,6 milyon manat çoxdur.
Maliyyə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Respublikasının Dövlət Neft Fondundan dövlət büdcəsinə transfert nəzərə alınmadan dövlət büdcəsinin gəlirləri 0,3 faiz çox icra edilməklə 18 milyard 151,3 milyon manat təşkil edib.
Bu ilin yanvar-sentyabr aylarında dövlət büdcəsinin daxilolmalarının 12 milyard 30,5 milyon manatı və ya 43,4 faizi vergi daxilolmalarının və dövlət rüsumlarının, 9 milyard 585,7 milyon manatı və ya 34,6 faizi Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertin, 4 milyard 931,2 milyon manatı və ya 17,8 faizi gömrük rüsumları və idxala görə vergi daxilolmalarının, 419,7 milyon manatı və ya 1,5 faizi büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalarının, 250 milyon manatı və ya 0,9 faizi Mərkəzi Bankın reallaşdırılmış mənfəətinin sərbəst qalığından daxilolmalarının, 28,3 milyon manatı və ya 0,1 faizi dövlət əmlakının icarəyə verilməsindən daxilolmaların, 491,6 milyon manatı və ya 1,7 faizi sair daxilolmaların payına düşüb.




Yanvar-sentyabr aylarında dövlət büdcəsinin gəlirləri üzrə təsdiq edilmiş proqnozdan vergi və rüsumlar üzrə daxilolmalar 197,1 milyon manat və ya 1,7 faiz, gömrük rüsumları və idxala görə vergi daxilolmaları 120,9 milyon manat və ya 2,5 faiz, Dövlət Neft Fondundan dövlət büdcəsinə transfert 0,2 milyon manat, dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar 3,9 milyon manat və ya 16 faiz çox, Mərkəzi Bankdan daxilolma proqnozlaşdırılan səviyyədə, büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar 79,5 milyon manat, 15,9 faiz və sair gəlirlər üzrə daxilolmalar 189,2 milyon manat, 27,8 faiz az təmin edilib.




## Son 3 ildə aqrar sığorta ödənişləri 10 milyon manatı ötüb



"Son 3 il ərzində Aqrar Sığorta Fondu tərəfindən edilən sığorta ödənişləri təxminən 10,8 milyon manatı keçib".
AZƏRTAC xəbər verir ki, bu sözləri Aqrar Sığorta Fondunun İdarə Heyətinin sədr müavini Ləman Alıyeva-Məmişova deyib.
O bildirib ki, edilən sığorta ödənişləri həm bitkiçilik, həm də heyvandarlıq sığortasını əhatə edir.
*"Sığorta ödənişləri 2022-ci ildə 2,4 milyon manat, 2023-cü ildə 4,4 milyon manat, 2024-cü ilin bu gününə olan məlumata əsasən isə 4 milyon manata yaxın təşkil edib. Sığorta ödənişləri 1000-ə yaxın fermerə edilib. Ötən illə müqayisədə bu il fonda olan müraciətlərin sayında 42 faiz artım müşahidə olunur"*, - deyə o qeyd edib.

# "İnnovasiya Azərbaycanın inkişaf gündəliyində mühüm yer tutur"



*"Elm, texnologiya və innovasiya kimi sahələr Azərbaycanın inkişaf gündəliyində mühüm yer tutur".*

Bunu Milli Məclisin sədri Sahibə Qafarova İsveçrə Konfederasiyasının Cenevrə şəhərində keçirilən Parlamentlərarası İttifaqın 149-cu Assambleyasında "Daha sülhsevər və dayanıqlı gələcək üçün elm, texnologiya və innovasiyadan (ETİ) istifadə" mövzusunda çıxışı zamanı deyib. O qeyd edib ki, Dayanıqlı İnkişaf Məqsədləri və hədəfləri ölkəmizin milli inkişaf planlarına və strategiyalarına daxil edilib. Ölkəmizdə müasir innovasiyalar və rəqabət qabiliyyətli insan kapitalı 2030-cu ilədək yeni sosial-iqtisadi inkişaf strategiyasının beş prioritet sahəsindən biridir.

Spiker deyib ki, qabaqcıl texnologiya sənayelərini və innovasiyanı dəstəkləyən, iqtisadiyyatın texnoloji imkanlarını artıran rəqəmsal cəmiyyət inkişafın hərəkətverici qüvvəsi hesab olunur. Bununla yanaşı, ETİ Azərbaycanın bərpa olunan enerji potensialını inkişaf etdirmək və Ermənistanın işğalından azad olunmuş Qarabağ və Şərqi Zəngəzur bölgələrində yaşıl enerji zonalarının yaradılması üzrə fəaliyyətinin mühüm amilidir.

Sahibə Qafarova bildirib ki, qlobal çağırışlar fonunda ölkələrin bir-birinin inkişaf arzularını dəstəkləmək kimi mənəvi öhdəliyi var. 2020-ci ildən bəri, Azərbaycan 140-dan çox ölkəyə 330 milyon ABŞ dolları dəyərində humanitar, iqtisadi və texniki yardım göstərib.

Diqqətə çatdırılıb ki, Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun 2023-cü ilin mart ayında Azərbaycanda keçirilmiş Zirvə görüşü çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev Afrika və inkişaf etməkdə olan kiçik ada dövlətlərinin pandemiyadan sonrakı bərpasını dəstəkləmək məqsədilə iki qlobal çağırış elan edib. Bu çağırışlar birbaşa maliyyə dəstəyi, təhsil imkanlarının genişləndirilməsi, potensialın artırılması və digər texniki vasitələri nəzərdə tutur.

# İqtisadi Şuranın növbəti iclası keçirilib




Oktyabrın 10-da İqtisadi Şuranın növbəti iclası keçirilib.

Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikası İqtisadi Şurasının sədri, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə keçirilən iclasda Prezident İlham Əliyevin sədrliyi ilə sentyabrın 26-da iqtisadi məsələlərə həsr olunmuş müşavirədəki tapşırıqlardan irəli gələrək "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları", ixrac əməliyyatları zamanı əldə olunmuş vəsaitin qanunvericiliyə uyğun olaraq 180 gün ərzində ölkəyə gətirilməsinin vəziyyəti, ixrac edilən malların sektorlar və ölkələr üzrə təsnifatı, fiziki və hüquqi şəxslər üzrə ölkəyə qaytarılmayan valyuta vəsaitləri, xarici valyuta vəsaitlərindən qaytarılmaması ilə əlaqədar inzibati-cinayət məsuliyyəti tədbirləri barədə geniş müzakirələr aparılıb.

Məsələ ətrafında Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov, Mərkəzi Bankın sədri Taleh Kazımov və Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev çıxış ediblər.

Gündəliyin ikinci məsələsi - "Cənub Qaz Dəhlizi" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyəti ilə bağlı məsələlər də ətraflı müzakirə olunub. İqtisadiyyat naziri Mikayıl Cabbarovun, SOCAR-ın prezidenti Rövşən Nəcəfin və Dövlət Neft Fondunun icraçı direktoru İsrafil Məmmədovun məsələ üzrə məruzələri dinlənilib.

Təqdim olunan məsələlər üzrə İqtisadi Şura üzvləri tərəfindən geniş müzakirələr aparılıb.

İclasın yekununda İqtisadi Şura üzvlərinin təklifləri nəzərə alınmaqla qərarlar qəbul olunub və aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib

# Azad olunmuş ərazilərin bərpası üçün illik nəzərdə tutulmuş vəsaitin 64 faizdən çoxu istifadə olunub

Cari ilin doqquz ayı ərzində sifarişçi təşkilatlar tərəfindən müvafiq layihələr üzrə dövlət xəzinədarlıq orqanlarına təqdim edilmiş xərc sifarişlərinin maliyyələşdirilməsi ilə dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası məqsədilə illik nəzərdə tutulmuş 4 milyard 855,8 milyon manat vəsaitin 64,6 faizi və ya 3 milyard 137,6 milyon manatı sifarişçi təşkilatlar tərəfindən, dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu üçün nəzərdə tutulan vəsaitin isə 61,4 faizi və ya 1 milyard 728,9 milyon manatı istifadə olunub.




Maliyyə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, yanvar-sentyabr aylarında funksional təsnifata uyğun olaraq səhiyyə xərcləri 113,8 faiz icra edilməklə 1 milyard 405 milyon manat, sosial müdafiə və sosial təminat xərcləri 104,3 faiz icra edilməklə 3 milyard 83,4 milyon manat, müdafiə və milli təhlükəsizlik xərcləri 101,5 faiz icra edilməklə 4 milyard 509,9 milyon manat, ümumi dövlət xidmətləri xərcləri 108,5 faiz icra edilməklə 3 milyard 361,1 milyon manat, təhsil xərcləri 97,6 faiz icra edilməklə 2 milyard 931,9 milyon manat, məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq bölməsi üzrə xərcləri 97,5 faiz icra edilməklə 1 milyard 941,9 milyon manat, iqtisadi fəaliyyət xərcləri 97,3 faiz icra edilməklə 5 milyard 592,3 milyon manat, kənd təsərrüfatı xərcləri 87,9 faiz icra edilməklə 665,2 milyon manat, ətraf mühitin mühafizəsi xərcləri 86,6 faiz icra edilməklə 215,5 milyon manat, mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət xərcləri 83,3 faiz icra edilməklə 316,5 milyon manat, mənzil və kommunal təsərrüfatı xərcləri 73 faiz icra edilməklə 177 milyon manat, əsas bölmələrə aid edilməyən xidmətlər bölməsi üzrə xərcləri 94,8 faiz icra edilməklə 974,6 milyon manat təşkil edib.

# Bu il dövlət büdcəsi 2,8 faiz profisitlə icra olunub




Maliyyə Nazirliyinin təqdim etdiyi operativ məlumatlara əsasən, cari ilin yanvar-sentyabr aylarında dövlət büdcəsinin gəlirləri 27 milyard 737 milyon manat, xərcləri 25 milyard 174,3 milyon manat təşkil edib.

Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, büdcənin icrasında 2 milyard 562,7 milyon manatlıq və ya ümumi daxili məhsulun 2,8 faizi qədər profisit yaranıb.

# "Hazırda Azərbaycanda ən seçilmiş ixtisaslar rəqəmsal sahə ilə bağlıdır"



"Çox qürurvericidir ki, Bakı Ali Neft Məktəbinin tələbələrindən ibarət komanda Türkiyədə keçirilən "TEXNOFEST"də kibertəhlükəsizlik üzrə müsabiqədə birinci yer tutub. "Simsiz rabitə üzrə süni intellektlə dəstəklənən yeni kibermüdafiə üsulları" mövzusunda təlim proqramında nümayəndələrimizin iştirak etməsi bizim üçün yaxşı bir fürsətdir".

Bu fikirləri Bakı Ali Neft Məktəbinin (BANM) rektoru Elmar Qasımov "Simsiz rabitə üzrə süni intellektlə dəstəklənən yeni kibermüdafiə üsulları" mövzusunda təlimin açılışında bildirib.

Rektorun sözlərinə görə, hazırda Azərbaycanda ən seçilmiş ixtisaslar rəqəmsal sahə ilə bağlıdır. Artıq 6-cı ildir ki, ölkəmizdə ilin ixtisası ilk dəfə BANM-də yaradılan informasiya təhlükəsizliyi ixtisasıdır. ***"Azərbaycanda ən yüksək bal toplayan tələbələr məhz bu ixtisası seçirlər. Tələbələrin seçdiyi 5 nüfuzlu ixtisasdan üçü rəqəmsal sahə ilə bağlıdır. Demək, universitetlərimizə yüksək bilikli kadrlar gəlir və güclü potensialımız var",*** - deyə E.Qasımov vurğulayıb.

E.Qasımov bildirib ki, amma bundan istifadə etmək üçün güclü müəllimlər, proqramlar və hədəflər lazımdır: ***"Bizim gələcək tədqiqatlara və bu sahə ilə bağlı mentorlara ehtiyacımız var. Ən çox mentorlarla bağlı çətinliklərlə üzləşirik. "Simsiz rabitə üzrə süni intellektlə dəstəklənən yeni kibermüdafiə üsulları" təlimi universitetlərin inkişafında əsas rol oynayan qızıl üçbucağı təmin edir. Bu qızıl üçbucaq isə sənaye, tədqiqat və universitetlər arasında əməkdaşlıqdır. Bu təlimdə qızıl üçbucaq təmin olunub. Belə təlimlərin təşkili ilə bu proses bizim üçün əlçatan olur. Müəllimlərimiz təlimdə öyrəndikləri bilikləri digər pedaqoqlara ötürə biləcəklər",*** - deyə Elmar Qasımov əlavə edib.

# Azərbaycanda iqtisadi fəal əhalinin sayı açıqlanıb

Cari ilin oktyabrın 1-i vəziyyətinə ilkin məlumatlara əsasən iqtisadi fəal əhalinin sayı 5304,9 min nəfər olub, onlardan 5021,7 min nəfərini məşğul əhali təşkil edib.

Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, cari il sentyabrın 1-i vəziyyətinə muzdla çalışan işçilərin sayı 1754,9 min nəfər, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 878,3 min nəfər, qeyri-dövlət sektorunda isə 876,6 min nəfər olub. İqtisadiyyatın neft-qaz sektorunda 31,7 min nəfər, qeyri neft-qaz sektorunda isə 1723,2 min nəfər çalışıb.

Müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin 23 faizi məhsul istehsalı sahələrində, o cümlədən 7,4 faizi emal sənayesində, 6,9 faizi tikintidə, 3,3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində, 1,9 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı, 1,9 faizi mədənçıxarma sənayesində, 1,6 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahələrində məşğul olub.



Xidmət sahəsində işləyənlərin 18,9 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 18,2 faizi təhsil, 8,3 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,4 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,7 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 4,3 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,8 faizi peşə, elmi və texniki fəaliyyət, 3,1 faizi istirahət, əyləncə və incəsənət, 3 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 2,2 faizi maliyyə və sığorta fəaliyyəti, 1,9 faizi informasiya və rabitə, 1,1 faizi daşınmaz əmlakla əlaqədar əməliyyatlar və 1,1 faizi digər sahələrdə xidmətlərin göstərilməsi sahələrində çalışıblar.

Bu ilin yanvar-avqust aylarında bir işçiyə düşən orta aylıq işlənmiş iş saatlarının miqdarı 145,8 saat təşkil edib. Oktyabr ayının 1-i vəziyyətinə Dövlət Məşğulluq Agentliyinin yerli qurumlarında qeydiyyata alınmış işsiz şəxslərin sayı 216,4 min nəfər olub, onların 46,9 faizini qadınlar təşkil edib. İşsizlikdən sığorta ödənişinin orta aylıq məbləği 407,9 manat olub.

# Ölkədə benzin və dizel yanacağı satışından əldə olunan gəlirlər 6,3 faiz artıb

Cari ilin yanvar-sentyabr aylarında Azərbaycanda yanacaq istehlakçıları 2 milyard 430,9 milyon manat məbləğində avtomobil benzini və dizel yanacağı alıblar.

Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, ötən ilin müvafiq ayları ilə müqayisədə istehlakçılara avtomobil benzini və dizel yanacağı satışından əldə edilən gəlir 6,3 faiz artıb. Hesabat dövründə Azərbaycanda pərakəndə ticarət dövriyyəsinin ümumi həcmində avtomobil benzini və dizel yanacağı satışından 5,7 faiz gəlir əldə edilib.

# Neft-qaz sektorunda 31 milyard manatlıq ÜDM istehsal olunub

Ümumi daxili məhsul (ÜDM) neft-qaz sektorunda cari ilin yanvar-sentyabr aylarında əvvəlki ilin müvafiq dövrünə nisbətən 0,9 faiz artaraq, 31 milyard 436,5 milyon manat olub.



Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 0,9 faiz artıb.

# Türk dövlətlərini birləşdirən güclü siyasi-iqtisadi platforma

*(əvvəli ötən sayımızda)*

***2021-ci ilə qədər Türk Şurası adlandırılan TDT üzv dövlətlərin başçılarının siyasi iradəsi, türk birliyinin formalaşması üzrə verdikləri mühüm qərarlar sayəsində ötən 15 ildə mühüm təşəkkül dövrü keçib, sürətlə təşkilatlanıb. Türkdilli Ölkələrin Parlament Assambleyası (TÜRKPA), Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY), Beynəlxalq Türk Akademiyası, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, Türkdilli Dövlətlərin Ticarət və Sənaye Palatası və Türk Biznes Şurası kimi qurumların fəaliyyəti sayəsində üzv ölkələr arasında əlaqələr sürətlə genişlənib. Dost və qardaş türk dövlətlərinin dil, tarix və mədəniyyətindən güc alan TDT Avrasiyada sülh, sabitlik və rifaha önəmli töhfələr verərək, regionun nüfuzlu təşkilatlarından birinə çevrilmişdir. Bu dövrdə TDT bir çox nüfuzlu təşkilatlarla əməkdaşlıq qurmuşdur.***

Yarandıqdan sonra TDT-nin 10 dəfə Zirvə Görüşü keçirilmişdir. Birinci Zirvə Görüşü "İqtisadi əməkdaşlıq" mövzusu adı altında 20-21 oktyabr 2011-ci il tarixlərində Almatı şəhərində baş tutmuşdur. İkinci Zirvə Görüşü 22-23 avqust 2012-ci tarixlərində Bişkekdə keçirilmişdir və mövzusu "Təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlıq" olmuşdur. Üçüncü Zirvə Görüşü 15-16 avqust 2013-cü il tarixlərində Azərbaycanın Qəbələ şəhərində keçirilmişdir. Bu dəfə isə mövzu "Nəqliyyat və bağlantı" idi. Dördüncü Zirvə Görüşü "Turizm sahəsində əməkdaşlıq" mövzusu adı altında 4-5 iyun 2014-cü il tarixlərində Bodrum şəhərində baş tutmuşdur. Beşinci Zirvə Görüşü 10-11 sentyabr 2015-ci il tarixlərində "Media və informasiya sahəsində əməkdaşlıq" mövzusu adı altında Qaxaxıstanın Astana şəhərində, VI Zirvə toplantısı 1-3 sentyabr 2018-ci ildə «Gənclik və milli idmanlar» mövzusunda Qırğızıstanın paytaxtı Bişkekdə, VII Zirvə toplantısı «Kiçik və orta sahibkarlığın dəstəklənməsi» mövzusunda 2019-cu ildə Bakıda, VIII Zirvə toplantısı 15 oktyabr 2021-ci ildə «Rəqəmsal çağda yaşıl texnalogiyalar və ağıllı şəhərlər» mövzusunda İstanbulda, IX Zirvə Görüşü isə 2022-ci ilin noyabr ayında Özbəkistanın Səmərqənd şəhərində keçirilmişdir.

2023-cü il noyabrın 3-də Qazaxıstanın paytaxtı Astanada Türk Dövlətləri Təşkilatının "Türk Əsri" çağırışı altında 10-cu yubiley Zirvə görüşü keçirilmişdir. Bu Zirvə Görüşündəki nitqində Prezident İlham Əliyev türk dövlətləri ilə münasibətlərin möhkəmləndirilməsinin Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biri olduğunu bəyan etmişdir: ***«Etnik və mədəni köklərimiz, dilimiz, ortaq keçmişimiz münasibətlərimizin təməlini təşkil edir. 2009-cu ildə Naxçıvan Zirvə görüşündən ötən müddət ərzində müxtəlif sahələrdə əməkdaşlığımız təsisatlanıb, Türk Dövlətləri Təşkilatı uğurlu inkişaf yolu keçib. Bu gün təşkilatımız beynəlxalq səviyyədə böyük siyasi çəkiyə və nüfuza malikdir».***



Hələlik sonuncu olan Astana görüşündə əldə olunan razılaşmaların türk dövlətlərinin münasibətlərinə yeni töhfələr verəcəyi şübhəsizdir.

Bu zirvə görüşlərinin bəziləri təşkilatın inkişafı və genişlənməsi baxımından xüsusilə əlamətdar olmuşdur. Məsələn, VI Zirvə Görüşündən sonra təşkilatın ən mühün nailiyyətləridən biri Macarıstanın paytaxtı Budapeşt şəhərində TDT-nin ofisinin açılmasıdır. Budapeştdə ofisin açılması təklifi Macarıstanın Baş Naziri Viktor Orban tərəfindən irəli sürülmüşdü. Ofis türkdilli dövlətlərlə Macarıstan, habelə Avropa İttifaqı və qurumun təsisatları arasında əməkdaşlığın yeni mərhələyə qədəm qoymasında əhəmiyyətli rol oynayır, təşkilatın fəaliyyətinə töhfə verir, inkişafına müsbət təsir göstərir.

2019-cu ildə Bakıda keçirilən VII Zirvə toplantısı isə təşkilatın yaranmasının 10 illiyinə təsadüf edirdi. 10 illik yubileyin və Bakı görüşünün başqa əsas özəlliyi Özbəkistanın təşkilata tamhüquqlu üzv olması idi. Beləliklə, 2009-cu ildə Naxçıvan Sazişi ilə əsası qoyulan və 2019-cu ilə qədər Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyənin üzv olduğu təşkilata həmin il daha bir türk dövləti - Özbəkistan qoşuldu. Təbii ki, bu ölkənin TDT-də təmsil olunmaq qərarı dərin çoxəsrlik köklərə əsaslanan mədəni və tarixi qardaşlığı müasir dövrün tələblərinə uyğun olaraq türkdilli dövlətlərin xalqlarının rifahı naminə daha da inkişaf etdirmək baxımından mühüm əhəmiyyət kəsb edir.

**TDT-nin fəaliyyətinin gücləndirilməsinə xidmət edən təşəbbüslər**

2009-2019-cu illərdə TDT çoxprofilli beynəlxalq təşkilat kimi formalaşma dövrü keçmişdir. Son illər isə təşkilatın fəaliyyətində qarşılıqlı əməkdaşlığın daha keyfiyyətli mərhələsinə və infrastruktur, sərmayələr, qanunvericilik sahələrində, həmçinin iqtisadiyyatın real sektorunda birgə layihələrin həyata keçirilməsini ehtiva edən sıx inteqrasiyaya keçmə mərhələsi olmuşdur. Məhz bu mərhələnin ilk iki ilində - 2019-2021-ci illərdə Azərbaycan quruma sədrlik etmişdir.

Azərbaycanın 2019-2021-ci illərdə TDT-yə sədrliyi dünyada koronavirus pandemiyasının şiddətlə tüğyan etdiyi dövrə təsadüf etdi. Məlum olduğu kimi, pandemiyanın pik dövründə Prezident İlham Əliyev bu bəla ilə mübarizədə qlobal liderlik missiyasını öz üzərinə götürdü. Dövlətimizin başçısı bu vəziyyətin heç kimə xeyir gətirməyəcəyini və koronavirusla mübarizədə qlobal həmrəyliyin vacib olduğunu nəzərə alaraq, dünyanın ayrı-ayrı qitələrindən müxtəlif siyasi və ideoloji quruluşlara malik ölkələri bir araya gətirməyə nail oldu.

Prezident İlham Əliyevin təşəbbüsü ilə 10 aprel 2020-ci il tarixində TDT-nin videokonfrans vasitəsilə "COVID-19 pandemiyası ilə mübarizədə həmrəylik və əməkdaşlıq" mövzusunda fövqəladə Zirvə görüşünün keçirilməsi koronavirusla mübarizədə ilk beynəlxalq tədbir kimi tarixə düşdü. Azərbaycan Prezidenti bu həssas durumda böyük siyasi qətiyyət nümayiş etdirərək, Türk Şurasının sədri kimi bu qurumun səmərəli fəaliyyətinə nail oldu, eyni zamanda qardaş və tərəfdaş ölkələrlə həmrəylik nümayiş etdirdi.

Beləliklə TDT dünya miqyasında ilk beynəlxalq təşkilat oldu ki, dövlət başçıları səviyyəsində COVID-19 pandemiyasına həsr olunmuş tədbir keçirdi. Prezident İlham Əliyev Zirvə Görüşündə çıxışında bununla bağlı demişdir: ***«Türk Şurası dünya miqyasında ilk beynəlxalq təşkilatdır ki, dövlət başçıları səviyyəsində COVID-19 pandemiyasına həsr olunmuş Zirvə görüşünü keçirir. Bu, bizim münəvi səviyyədə olan həmrəyliyimizin növbəti bariz təzahürüdür. Bizi birləşdirən ortaq soykök, tarix, mədəniyyət və milli dəyərlər qarşılıqlı səmərəli fəaliyyətimiz üçün mühüm əsasdır.***

***Koronavirus pandemiyası qlobal təhlükə olduğu üçün qlobal cavab tələb edir. Pandemiyanın ilk günlərindən etibarən bəzi ölkələr və beynəlxalq təşkilatların koronavirus qarşısında çaşqın qalmasının, özünəqapanma yolunu seçməsinin şahidi oluruq. Pandemiyanın dünyanı bürüdüyü indiki şəraitdə dünyanın həmrəyliyə və əməkdaşlığa ehtiyacı vardır».***

Azərbaycan Prezidenti həmin həssas durumda belə böyük siyasi qətiyyət nümayiş etdirərək TDT-nin sədri kimi bu qurumun səmərəli fəaliyyətinə nail oldu, eyni zamanda qardaş və tərəfdaş ölkələrlə həmrəylik nümayiş etdirdi. Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan, Türkmənistan prezidentləri və Macarıstanın Baş naziri ilə yanaşı, ÜST-nin Baş direktoru Tedros Adhanom Qebreyesusun konfransda iştirakı İlham Əliyevin koronavirusla mübarizə sahəsindəki təşəbbüslərinin beynəlxalq səviyyədə yüksək qiymətləndirilməsinin təsdiqi kimi tarixə düşdü. Təsadüfi deyil ki, konfrans iştirakçısı olan bütün dövlət rəhbərləri, o cümlədən ÜST Baş direktoru Prezident İlham Əliyevə təşəkkürlərini ifadə etdilər. Çıxışlarda tədbirin koronavirus pandemiyası ilə mübarizədə türkdilli dövlətlərin həmrəyliyini daha da möhkəmləndirəcəyi birmənalı bəyan olundu.

Fövqəladə Zirvə görüşünün keçirilməsi və səslənən təkliflərin həyata keçirilməsi koronavirus təhlükəsinin səngimədiyi çətin dövrdə türkdilli dövlətlərin üzləşdikləri çətinliklərin aradan qaldırılmasında mühüm rol oynadı. Ən əsası isə odur ki, Azərbaycan Prezidentinin təşəbbüsünün dəstəklənməsi və təqdir olunması türkdilli dövlətlər arasındakı həmrəyliyin möhkəm olduğunu və İlham Əliyevin qeyd etdiyi kimi, onların yalnız xoş günlərdə deyil, çətin günlərdə də bir-birinin yanında olduğunu göstərdi.

Azərbaycanın sədrliyinin COVİD-19 pandemiyası dövrünə təsadüf etməsinə baxmayaraq, respublikamz türkdilli dövlətlər arasında həm ikitərəfli, həm də çoxtərəfli səviyyələrdə dostluq və əməkdaşlıq əlaqələrinin daha da möhkəmləndirilməsi, habelə Türk Şurasının dünyada nüfuzunun daha da artırılması istiqamətində səylər göstərdi. Ümumiyyətlə isə sürətlə dəyişən dünya nizamı da göstərirdi ki, türk dövlətlərinin bütün məsələlərdə həmrəylik nümayiş etdirməsi həmişə olduğundan daha çox vacibdir. Bunları nəzərə alaraq Azərbaycanın sədrliyi dövründə türk dövlətləri arasında əlaqələrin daha da dərinləşdirilməsi istiqamətində mühüm işlər görüldü. Məsələn, 2019-2021-ci illərdə təşkilat çərçivəsində mövcud əməkdaşlıq istiqamətlərinə əlavə olaraq, səhiyyə, miqrasiya, kənd təsərrüfatı, energetika, media, prokurorluq, ədliyyə və humanitar sahələrdə yeni əməkdaşlıq mexanizmləri quruldu.

2021-ci il martın 31-də videokonfrans vasitəsilə TDT-nin qeyri-rəsmi Zirvə Görüşü keçirilib. Bu respublikamızın təşkilata sədrliyi dövründə dövlət başçıları səviyyəsində keçirilən sayca ikinci tədbir oldu. Tədbir zamanı Qazaxıstanın Türkistan şəhərinə yeni təsis olunmuş "Mənəvi paytaxt" statusu verildi.

Bu, dövrdə təşkilata üzv olan dövlətlərin iqtisadiyyat, səhiyyə, nəqliyyat, xarici işlər nazirlərinin videkonfrans formatında görüşləri keçirilib. İşğaldan azad edilmiş ərazilərimizin bərpası və yenidən qurulması layihələrinə Türk Şurasına üzv və müşahidəçi ölkələrdən olan şirkətlər və iş adamları maraq göstərir, bu xüsusda 2021-ci il sentyabrın 10-da Bakı şəhərində "Azərbaycanın işğaldan azad edilmiş Qarabağ regionunun bərpasına və inkişafına həsr olunmuş" biznes forum keçirilib.

Həmçinin Bakıda Türkdilli Dövlətlərin Baş Prokurorlarının 1-ci iclası keçirilib və Türk Şurasına üzv Dövlətlərin Baş Prokurorları Şurası təsis olunub.

Göründüyü kimi, Azərbaycan təşkilata sədrliyi dövründə Türk Şurasının səmərəli, məhsuldar və uğurlu fəaliyyəti təmin olunub, üzv ölkələr arasında həm ikitərəfli, həm də çoxtərəfli səviyyədə əməkdaşlığın daha da dərinləşməsi istiqamətində mühüm addımlar atılıb.

Ən əsası Azərbaycanın sədrliyi dövründə görülən işlər təsdiqləmişdir ki, qloballaşan və dəyişən dünya nizamına türk dövlətlərinin həmrəylik nümayiş etdirməsi olduqca vacibdir.

*(davamı gələn sayımızda)*

**Ziyad SƏMƏDZADƏ,**
**Milli Məclisin deputatı, akademik**

**Mənbə: "Azərbaycan" qəzeti, 4 oktyabr 2024-cü il.**

# Bakıda "Xəzər İnşaat Həftəsi" öz işinə başlayıb



Açılış mərasimində əvvəlcə Prezident İlham Əliyevin Xəzər İnşaat Həftəsi çərçivəsində keçirilən "Rebuild Karabakh" sərgisinin iştirakçı və qonaqlarına müraciəti oxunub.

Qeyd edək ki, "Xəzər İnşaat Həftəsi" çərçivəsində 4-cü Azərbaycan Beynəlxalq "Qarabağın Bərpa, Yenidənqurma və İnkişafı", "Rebuild Karabakh", 29-cu Azərbaycan Beynəlxalq İnşaat "BakuBuild", 16-cı Beynəlxalq İstilik, Havalandırma, Kondisionerləşdirilmə, Su təchizatı, Santexnika və Üzgüçülük Hovuzu "Aquatherm Baku" sərgiləri, eləcə də bu tədbirlərlə yanaşı 12-ci Xəzər Beynəlxalq Yol İnfrastrukturu və İctimai Nəqliyyat "Road&Traffic" sərgisi baş tutub.

Sərgilər İqtisadiyyat Nazirliyi, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad olunmuş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi, Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi, Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO), Bakı Şəhər İcra Hakimiyyəti, Qarabağ Dirçəliş Fondu, Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA), Azərbaycan Memarlar İttifaqı, Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK), Azərbaycan Tikinti Materialları İstehsalçıları Assosiasiyası (ATMİA), Azərbaycan Tikinti İstehsalçıları Assosiasiyası (ATİA) və Azərbaycan Sərgi Təşkilatçıları Assosiasiyası (ASTA) tərəfindən dəstəklənir.

"BakuBuild" sərgisinin qızıl sponsoru "NB Group" (Corella brendi) şirkətidir. İnşaat, tikinti materialları, interyer, keramika və üz daşı, döşəmələr və s. kimi sahələrdə ixtisaslaşmış olan "NB Group" şirkəti, "Xəzər İnşaat Həftəsi"nin ənənəvi iştirakçısıdır və artıq illərdir bu tədbirin sponsoru qismində çıxış edir. Mühüm şirkətlərin uzun illər boyu sərgiyə dəstəyi və etimadı, tədbirin əhəmiyyətinin və inşaat sektoruna verdiyi töhfənin göstəricisidir.

Hazırda "Xəzər İnşaat Həftəsi" çərçivəsində keçirilən sərgilərdə 22 ölkədən 380-dən artıq şirkət iştirak edir.

Bu il "Xəzər İnşaat Həftəsi" daha bir əhəmiyyətli hadisəyə təsadüf edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2024-cü il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Bu əlamətdar hadisə "Xəzər İnşaat Həftəsi"ndə iştirakçılar tərəfindən nümayiş olunacaq məhsul və xidmətlərdə, eləcə də sərginin tədbirlər proqramında öz əksini tapacaq.

# Füzulinin "ağıllı kənd"i Dövlətyarlı olacaq



"Füzulinin Dövlətyarlı kəndində hazırlıq işləri tamamlanıb və bu kənd "ağıllı kənd" layihəsi kimi sistemləşdiriləcək. Tikintinin 1-ci mərhələsində Dövlətyarlı kəndində 450 fərdi evin tikintisi nəzərdə tutulur".

Bunu Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin icraçı direktorun müavini Səbuhi Abdullayev "Xəzər İnşaat Həftəsi" çərçivəsində keçirilən panel müzakirəsində deyib.

O bildirib ki, kənddə alternativ enerji mənbələrindən, yaşıl enerjidən istifadə ediləcək, burada məktəb, uşaq bağçası, kənd meydanı, bazar və digər infrastruktur obyektləri də formalaşdırılacaq. ***"Cuvarlı, Qarğabazar, Qoçəhmədli və Dədəli kəndlərində isə layihələndirmə işləri davam etdirilir. Həmçinin Pirəhmədli kəndində bərpa işlərinə başlanılır. Füzuli şəhərinin mərkəzində, Zəfər yolunun kənarında salınan çoxmənzilli binalarda 822 ailə məskunlaşıb. Bu isə 3132 nəfər sakin deməkdir. Şəhərdə 38 çoxmərtəbəli bina, eləcə də 846 mənzildən ibarət 4,5,6 və 7 mərtəbədən ibarət evlər inşa edilib. Baş plana uyğun olaraq şəhərdaxili yolların uzunluğunun 87 kilometrdən çox olması nəzərdə tutulub",*** - deyə Səbuhi Abdullayev əlavə edib.

# "Sosial ədalət baxımından bu şirkətlər xidmət apardığı yerə sağlıq da aparmağı bacarmalıdır"

*Yaxın günlərdə Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) Rusiyanın Sankt-Peterburq Dövlət İqtisad Universiteti ilə birgə COP29-a həsr olunan "Yaşıl iqtisadiyyat: Elm, təhsil, texnologiya və innovasiya" mövzusunda beynəlxalq elmi-praktiki konfrans keçirildi. Konfransda Türkiyənin əmək və sosial müdafiə nazirinin müavini, professor Lütfihak Alpkan da çıxış edərək, yaşıl transformasiyaya ədalətli keçid barədə danışdı. Biz də "İqtisadiyyat" qəzeti olaraq professorla görüşərək, ona "yaşıl iqtisadiyyat" və "yaşıl transformasiya" ilə əlaqəli suallarımız ünvanladıq.*



**- Lütfihak bəy, konfransda "yaşıl iqtisadiyyat", onun əsas xüsusiyyətləri, məqsədləri barədə danışdınız. İstərdik oxucularımıza da günümüz üçün "yaşıl iqtisadiyyat"ın əsas üstünlük və çatışmazlıqları barədə məlumat verəsiniz?**

- "Yaşıl iqtisadiyyat"ın, həqiqətən, çox önəmli faydaları ilə bərabər, bəzi çatışmazlıq və qeyri-müəyyənlikləri də var. "Yaşıl iqtisadiyyat"ın ən önəmli faydası karbon emissiyasını azaldıb, xüsusilə atmosferin çirklənməsi və qlobal istiləşməni neytrallaşdırmasıdır. Bununla bərabər, rəqəmsal transformasiya özü ilə "twin transformation", yəni ekiz transformasiya əmələ gətirir. Məhsuldarlığın artırılması və fəaliyyət prosesinin sürətləndirilməsi bunun ən bariz faydaları olaraq qarşımıza çıxır. Lakin "yaşıl iqtisadiyyat"ın bir sıra çətinlikləri də var. Xüsusilə bu, hazırda qoyulan investisiyaların məhsuldar olmamağına səbəb olur. Bir tərəfdən işçiləri məhsuldar edir, lakin digər tərəfdən daha əvvəl həyata keçirilən istehsal və nəqliyyat texnologiyalarının hələ iqtisadi ömürləri var olmasına baxmayaraq, deaktiv edir. Bu, çox önəmli bir amildir. Həmçinin, yeni fəaliyyət mexanizmlərinin həyata keçirilməsi üçün investisiya maliyyəsi məsələsini ortaya çıxarır. Bu da köhnə işlərdə yetişmiş, peşəkar, idarəetmə bacarıqlarına sahib şəxslərin öz işlərini itirməsi ilə nəticələnir. Məsələn, bir mədən mühəndisi, sahibkar, yaxud işçisi gələcəkdə işsiz qala bilər. Belə bir vəziyyətdə, həmçinin daxili yanma mühərriki üzrə mühəndisə, avtomobil zavodlarına da ehtiyac qalmayacaqdır. Dolayısı ilə "yaşıl iş yerləri" köhnə - "qəhvəyi iş yerləri"nin sıradan çıxması ilə formalaşacaq. Yəni, bir tərəfdən 18 milyon yeni iş yeri meydana çıxacaq, digər tərəfdən 5 milyon iş yeri yox olacaq.

Ümumiyyətlə köhnə işlərdə peşəkar olanlar yeni işlərdə peşəkar ola bilməzlər. Bu cür keçid mümkün deyil. Bu, ancaq möcüzə ola bilər.

Bir digər problem "qəhvəyi iş"dən "yaşıl iş"ə keçiddə özünü göstərən emosional bağlılıqdır. İnsanlar özünü təqdim edərkən, adətən, doğulduğu şəhər və peşəsini qeyd edirlər. Artıq peşəsizləşmiş olacağıq. Yəni, fəaliyyət göstərdiyimiz peşənin də nə qədər davam edəcəyini bilməyəcəyik. Bəzi peşələrin yarıdan çoxu öz daxilində dəyişəcək. Yəni, yenə, məsələn, jurnalist olacaqsan, amma başqa texnologiyalardan istifadə edən jurnalist. Bunlar öz daxilində dəyişdiyi üçün də əlavə təhsil və təcrübə tələb edəcək. Bu təcrübəni verə biləcək təhsil müəssisəsi isə hələlik yoxdur. Hazırda Amerikada da, Türkiyədə də, ümumiyyətlə dünyada hər kəs peşə təcrübəsinin köçürülməsi məsələsi üzərində tədqiqatlar aparır.

Bilgi menecmentində usta-şagird əlaqəsi üzrə öyrənmə məsələsi vardır. Yəni, mühəndis əslində məktəbdə mühəndis olmur, təcrübə keçərək məhz inşaatda mühəndis olur. Çində artıq belə bir təcrübə imkanları mövcud deyil. Çünki sürətlə robotlaşma prosesi gedir. Yaponiyadakı xəstəxanalarda robot tibb bacıları, restoranlarda robot personallar çalışırlar. Burada tibb bacısı olmaq üçün bunu öyrədəcək şəxsləri tapmaq artıq çətinləşib. Təcrübə silsiləsi tədricən ortadan qalxır. İş üzərində təcrübə mexanizmi sıradan çıxdıqca yerinə kodlanmış məlumatlar gəlir. Artıq insandan daha sürətli şəkildə maşınlar bir-birindən öyrənəcək. Bununla əlaqədar insanlarda qorxu da yaranmışdır – dəbi keçmişlik, istifadəsizlik qorxusu. Yeni texnologiyalar çıxdıqca insanlar ona adaptasiya ola bilməsə də, maşınlar ola bilir. Bu sırada gənclər xüsusi qeyd etmək lazımdır. Yeni nəsil adaptasiya prosesini daha rahat keçirir. Amma düşünürəm ki, bu proqnozlar real həyatda öz təsdiqini tapmayacaq. Çünki biz indi bunları sadəcə eşidirik, 5-10 il sonra gerçəkləşməsi sual altındadır. Lakin iş yerlərinin itirilməsi prosesi gerçəkləşəcək.

**- Qeyd etdiniz ki, 18 milyon yeni iş yeri meydana çıxacaq, digər tərəfdən 5 milyon iş yeri yox olacaq. Bəs bu 5 milyon insan necə olacaq?**

- Mövcud ekoloji problemləri, adətən, biraz təbiət, biraz da insan həll edir. Karbon emissiyası da bütövlükdə dünyaya zərər vermir. Bir qismini meşələr onsuz da udur. Burada əsas məsələ işsizliklə bağlıdır. Təbii ki, işsiz qalanlar da müəyyən bir məşğulluq tapacaqlar. Burada xüsusilə cəmiyyətin dəstəyinə ehtiyac var. Əsasən böyük gəlir əldə etmə potensialı olan, dünyanın inhisarçı platformalarının, iqtisadiyyatların milli dövlətlərə verdikləri verginin həcminin artması və vətəndaşlara işsizliklə bağlı əməkhaqqı verilməsi, bir növ işsizlik fondunun yaradılması, yeni bacarıqlara yiyələnməkdə dəstək göstərilməsi faydalı olacaqdır. Yeni yaranacaq təhsil modelləri də ancaq elm adamlarından deyil, sahədən başı çıxan təcrübəli şəxslərin formalaşdırdığı insanlar olacaqlar. Bu proses də dərhal deyil, tədricən reallaşcaq.

"Yaşıl transformasiya"nın əsas məqsədi arxada heç kəsi qoymamaqdır. Bu keçidin birbaşa sahibi də yoxdur. Yəni, burada qərar verəcək kimsə yoxdur. Burada dövlət-özəl sektor-vətəndaş cəmiyyəti təşkilatları, beynəlxalq təşkilatların birgə fəaliyyəti effektiv nəticələr verə bilər.

**- Bəs "yaşıl iqtisadiyyat"a keçiddə mövcud olan, yaxud düşünülən risk amillərini aradan qaldırmaq üçün hansı təklifləр var?**

- Burada ilk olaraq ortaq təşəbbüslərə ehtiyac var. Xüsusilə dezavantajlı qrupların çətin vəziyyətdə qalmaması üçün eyni narahatlıqları bölüşən tərəflər olması vacibdir. Belə tərəflər isə mövcud deyil. Özəlliklə beynəlxalq təşkilatlar son illərdə sanksiyalarını itirdilər. Yəni, hansısa beynəlxalq təşkilatın belə bir gücü yoxdur. Ancaq dövlətlər birləşərək, bu əsasda fond yarada bilərlər. Texnoloji həllər istehsal edən, süni intellektlə bağlı istehsalçı və məhsulları dünya bazarlarında inhisarlaşmış, çox böyük gəlirlər əldə edən şirkətlər, firmalar vardır ki, onların bu sahədə xüsusi rolu mümkündür. Yəni, onların əsas yönəldiyi istiqamət gəlir əldə etmək yox, insan mərkəzli olmalıdır. Bu, cəmiyyət içərisində etibarın da artmasına müsbət təsir edəcəkdir. Bunun üçün isə maliyyə yox, sosial məsuliyyət lazımdır. Məsələn, hazırda böyük şirkətlər peyk üzərindən informasiyaların ötürülməsinə gəlir qoyurlar. Bununla Afrikada suyun olmadığı yerlərdə İnternet mövcuddur. İnterneti olanlara isə suyu çatdırmaq mümkündür. Bu şirkətlərin dünya miqyasında etdikləri satış miqdarı ilə hissələri eyni səviyyədə yüksəlmir. Dünyada böyük iqtisadiyyata sahib olanların bəziləri ümumiyyətlə dövlət deyil, sadəcə təşkilatlardır. Dolayısı ilə bu təşkilatların çox böyük imkanları var. Sosial ədalət baxımından bu şirkətlər xidmət apardığı yerə sağlıq da aparmağı bacarmalıdırlar. Məsələn, Türkiyədə bir siqaret istehsalçısı həm də vərəm xəstəliyi üçün xəstəxana da açmışdı. Bir yeri pozursa, bir yeri də düzəltmək lazımdır.

Burada önəmli olan milli dövlətlərin zəifləməməsidir. Bir ölkənin İnterneti peyklə təmin olunursa, o ölkəyə vergi verilməli, həmin ölkə də o gəliri vətəndaşları üçün xərcləməlidir.

**- "Yaşıl iqtisadiyyat"a keçid prosesində böyük dövlətlərin kiçik dövlətlərə yardım etməsinin vacibliyi məsələsinə toxundunuz. Bəs onlar bunu nə üçün etməlidirlər?**

- İnkişaf etmiş ölkələrdə ictimai rəy var. Bir növ seçici vətəndaşlar mövcuddur. Onların bir qismi də ətraf mühit problemlərindən əziyyət çəkirlər. Buna görə də öz dövlətlərini bu problemlərə həssas olmağa çağırırlar. Bundan başqa, 50 faiz fərqli düşünən, daha mühafizəkar qruplar mövcuddur. Bu gün Avropada əhalinin sayı azalır, Afrikada isə artır. Köçün qarşısını almaq üçün addımlar atılır. Yəni, Avropa öz daxilinə qapanıb, gəlirləri öz içərisində xərcləyərsə, çökər. Buna görə həlləri ixrac etmək lazımdır. Onsuz da bu gün dünyada çox böyük tədarük zənciri var. Məsələn, Çin karbon emissiyasının üçdə bir hissəsini təkbaşına istehsal edir, amma istehsal etdiklərini Çində istehlak etmir, dünyaya yayır. Bir növ dünya üçün dünyayı çirkləndirir. Bunu isə yalnızca öz içinə qapanmaqla həll etmək mümkün deyil. İnkişaf etmiş ölkələrin inkişaf etməkdə olan ölkələrin ətraf mühit problemlərinə kömək etməsi lazımdır. Öz ölkələrində ətraf mühitə həssas insanlara sağlıqlı məhsullar təqdim etmək üçün tədarük zəncirinin başından sonuna qədər "yaşıl" olmaq vacibdir. Çirklənmənin müştərisi Avropa və Amerika olduğundan bütün dünyaya qarşı məsuliyyətli olmaq gərəkdir. Burada həmçinin israf məsələsi də var. Türkiyədə hər il 14 milyon çörək atılır.

**- Türkiyədə "yaşıl enerji"yə keçidlə bağlı hansı işlər görülür?**

- Türkiyədə çox sürətli şəkildə külək və günəş enerjisinə keçidlə bağlı addımlar atılır. Bununla bağlı universitetlərdə, laboratoriyalarda təhsil sistemi, istehsalla bağlı məsələlər ortaya çıxdı. Bundan sonra da məqsədimiz yavaş-yavaş ətraf mühit dostu olan enerji istehsalı ilə bağlı işlər həyata keçirilməkdir. Türkiyədə avtomobillərdən ətraf mühitə buraxılan zəhərli qazlarla bağlı bir sıra işlər görüldü. "TOGG" adlı avtomobil istehsal olundu. Bu avtomobil hibrid deyil, daxili yanma mühərriklərindən yan keçərək tam elektriklidir. Xüsusilə nəqliyyatda 30 faiz karbon emissiyası ortaya çıxır. Həm nəqliyyat, həm də enerji istehsalında bir sıra tədbirlər gördük, müxtəlif layihələrlə Avropadakı "yaşıl fond"lardan istifadə edərək, bu sahədə müəyyən məsafə qət etdik. Hətta Türkiyədə Enerji Nazirliyinin adı da dəyişərək, Çevre, Şehircilik ve İklim Değişikliği Bakanlığı oldu. Türkiyə ümumi olaraq dünyadakı karbon emissiyasının 1,2-1,3-nü istehsal edir. Bundan sonra hədəfimiz karbon emissiyasını daha da azaltmaqdır. Karbon udma zavodları digər zavodların istehsal etdikləri karbonu udub, meşə kimi fəaliyyət göstərəcək. Türkiyədə çox böyük meşə yanğınları olur. Biz daima ağac əkməyə çalışırıq. 90-cı illərdə İstanbul Bələdiyyəsi "Ağac" A.Ş. deyə bir şirkət qurmuşdu. Həmin vaxt İstanbulda 1 milyon ağac əkildi. Qlobal istiləşmə ilə əlaqədar meşə yanğınları, göllərdə quruma, yeraltı suların çəkilməsi, sel fəlakətləri yaşanır. Çalışırıq ki, tezliklə bunların qarşısını alaq.

*- Təşəkkürlər, Lütfihak bəy.*

**Mətanət HÜSEYNOVA**

# Laçın şəhərində 24 fərdi evdə günəş panelləri quraşdırılıb

"Laçın şəhərində 24 fərdi evdə enerji təchizatının sabitliyini təmin etmək üçün günəş panelləri quraşdırılıb. 9 fərdi ev isə günəş kollektoruna qoşulub".



Bunu Laçın rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin icraçı direktorun vəzifələrini icra edən Tofiq İslamov Xəzər İnşaat Həftəsi çərçivəsində keçirilən panel müzakirəsində deyib.

Onun sözlərinə görə, Zabux və Sus kəndlərində bütün yaşayış evləri, iki məktəb və inzibati binalar günəş panelləri ilə təchiz olunub.

*"Laçın rayonunda 80 milyon kilovat saatdan artıq yaşıl enerji istehsal olunub. Yaşıl enerji strategiyasına uyğun olaraq Laçın rayonunda 11 yerdə su elektrik stansiyaları qurulur. COP29 planına uyğun olaraq bərpa-tikinti prosesində ətraf mühitin mühafizəsi məsələsinə diqqət yetirilir, alternativ enerji mənbələrinin istifadəsinə böyük önəm verilir. Bu, evlərin damlarının üzərində quraşdırılmış günəş panellərində, şəhərdaxili işıqlandırmanı təmin edən hibrid-solar lampaların istifadəsində öz əksini tapır"*, - deyə Tofiq İslamov bildirib.

# Ağdərə şəhərində 190 evin tikilməsi nəzərdə tutulur



"Ağdərə şəhərində 190, Xocalı şəhərində 56, Malıbəyli və digər kəndlərdə isə 120 yaşayış evinin tikilməsi nəzərdə tutulur".

Bunu "Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin həmkarlar ittifaqı komitəsinin sədri Həmid Mehdiyev Xəzər İnşaat Həftəsi çərçivəsində keçirilən panel müzakirələrində çıxışı zamanı bildirib.

O qeyd edib ki, Suqovuşanda 5 ədəd 5 mərtəbəli bina tikilir və artıq işlər yekunlaşmaq üzrədir.

*"Xankəndi şəhərində fəaliyyət göstərən 5 mindən artıq dövlət və qeyri-dövlət qurumlarının əməkdaşları yaşayış yerləri ilə təmin olunublar. Bununla yanaşı, Xankəndi şəhərinin də Baş Planı yekunlaşmaq üzrədir. Xankəndidə yaşayış sahələri ilə yanaşı, istirahət kompleksləri də tikilir"*, - deyə Həmid Mehdiyev bildirib.

# Yanvar-sentyabr aylarında bir istehlakçı orta hesabla ayda 582 manat xərcləyib

Cari ilin yanvar-sentyabr aylarında istehlakçıların tələbatlarının ödənilməsi məqsədilə satılmış malların və göstərilmiş xidmətlərin dəyəri 53,4 milyard manat olmaqla 2023-cü ilin yanvar-sentyabr aylarına nisbətən müqayisəli qiymətlərlə 4,5 faiz artıb.

Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, qeyri-dövlət sektorunun təsərrüfat subyektləri tərəfindən satılmış malların və göstərilmiş xidmətlərin dəyəri 2023-cü ilin yanvar-sentyabr ayları ilə müqayisədə 4,4 faiz artaraq 51,3 milyard manata bərabər olub, onun 45,4 faizi fərdi sahibkarların fəaliyyəti sayəsində formalaşıb.

Hesabat dövründə bir istehlakçı orta hesabla ayda 582,2 manat və ya 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə nominal ifadədə 29,5 manat çox vəsait xərcləyib.

# Çinin telekommunikasiya texnologiyaları şirkəti ilə Anlaşma Memorandumu imzalanıb

Azərbaycan İnvestisiya Holdinqi ilə Çinin "FiberHome Telecommunication Technologies Co., Ltd." şirkəti arasında əməkdaşlıq üzrə Anlaşma Memorandumu imzalanıb.

İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, bununla əlaqədar keçirilən tədbirdə nazir Mikayıl Cabbarov, Azərbaycan İnvestisiya Holdinqinin baş icraçı direktoru Ruslan Əlixanov, "FiberHome Telecommunication Technologies Co., Ltd."nin baş icraçı direktoru Hai Lan iştirak ediblər.

Tədbirdə 2030-cu ilə qədər Azərbaycanın sosial-iqtisadi inkişafına dair Milli Prioritetləri barədə məlumat verilib, sənəddə ölkəmizin müasir innovasiyalar məkanına çevrilməsinin qarşıya hədəf kimi qoyulduğu qeyd edilib. Bildirilib ki, ölkəmizdə "ağıllı" texnologiyaların tətbiqinin genişləndirilməsi məqsədilə dünyanın aparıcı şirkətləri ilə uğurlu əməkdaşlıq əlaqələri qurulub və mühüm layihələr icra edilir.

Bu gün telekommunikasiya texnologiyaları sahəsində ixtisaslaşan şirkətlə imzalanan sənədin icrası tərəflərin ağıllı infrastruktur, innovativ mexanizmlər və informasiya texnologiyaları istiqamətlərində əməkdaşlığını gücləndirməklə Azərbaycan və Çin arasında biznes tərəfdaşlığının təşviqinə və Azərbaycan İnvestisiya Holdinqinin portfel şirkətləri tərəfindən qabaqcıl biznes təcrübələrinin tətbiqinə təkan verəcək.

Qeyd edək ki, "FiberHome Telecommunication Technologies Co., Ltd." şirkəti 1999-cu ildən fəaliyyət göstərən Çinin nəhəng telekommunikasiya texnologiyaları şirkətlərindən, habelə dünyanın ən böyük fiber-optik kabel istehsalçılarından biridir. Şirkət optik ötürmə sistemləri, İP şəbəkələri, məlumat mərkəzləri və müasir şəbəkə infrastrukturu həlləri kimi sahələrin daxil olduğu geniş məhsul portfelinə sahibdir və dünyanın 90-dan çox ölkəsində məhsul və xidmətlərin satışını həyata keçirir.

# “AzerGold” QSC tərəfindən RİİB könüllüləri üçün ÇİRES-ə tanışlıq səfəri təşkil olunub



“AzerGold” QSC tərəfindən “Regional İnkişaf” İctimai Birliyinin (RİİB) könüllüləri üçün Daşkəsən rayonunda yerləşən Çovdar İnteqrəolunmuş Regional Emal Sahəsinə (ÇİRES) tanışlıq səfəri təşkil edilib.
Səfər zamanı əvvəlcə RİİB könüllülərinə müəssisə daxilindəki təhlükəsizlik qaydaları izah olunub, fərdi mühafizə vasitələri təqdim edilib.
Daha sonra könüllülər “Çovdar” qızıl mədəni, yeni istifadəyə verilən, Çəndə qələviləşdirmə texnologiyası əsasında fəaliyyət göstərən Çəndə Qələviləşdirmə Zavodu, eləcə də Topa qələviləşdirmə texnologiyası əsasında mövcud istehsalat infrastrukturu ilə tanış olublar.
Tanışlıq səfəri zamanı könüllüləri maraqlandıran suallar cavablandırılıb. Qonaqlara ÇİRES-də qiymətli metalların hasilatı, emalı prosesi, tətbiq edilən istehsalat texnologiyaları barədə ətraflı məlumat verilib.
Qeyd edək ki, ÇİRES-də həyata keçirilən hasilat və istehsalat prosesi ilə ictimaiyyət nümayəndələrinin mütəmadi tanışlığı məqsədi ilə infoturların təşkili bundan sonra da davam etdiriləcək.

# Neft-qaz sektorunda çalışanların sayı açıqlanıb




Yanvar-sentyabr aylarında iqtisadiyyatın neft-qaz sektorunda 31,7 min nəfər çalışıb.
Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, orta aylıq nominal əməkhaqqı neft-qaz sektorunda 3745,5 manat təşkil edib.
Dövlət müəssisələrində çalışan işçilərin əməkhaqları 953,7 manat, özəl müəssisələrdə isə 1042,8 manat olub.

# Şərqi Zəngəzur və Naxçıvanı birləşdirəcək dəmir yolu xəttinin inşası müzakirə edilib

İranda rəsmi səfərdə olan “Azərbaycan Dəmir Yolları” QSC-nin (ADY) sədri Rövşən Rüstəmov bu ölkənin dəmir yolu administrasiyasının rəhbəri Cabbar Əli Zakeri Sardrudi ilə görüşüb.
ADY-dən bildirilib ki, görüş zamanı İran ərazisi vasitəsilə Azərbaycanı Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək nəqliyyat marşrutu və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi üzrə əməkdaşlıq müzakirə edilib.
İranın ərazisindən keçməklə Şərqi Zəngəzur İqtisadi Rayonu və Naxçıvan Muxtar Respublikası arasında birbaşa quru əlaqəni təmin edəcək dəmir yolu xəttinə dair ötən il razılaşdırılmış konseptual layihə çərçivəsində ortaq maraq doğuran məsələlər barədə geniş fikir mübadiləsi aparılıb.
Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi üzrə əməkdaşlığa dair danışıqlar zamanı isə dəhlizin inkişafı və yük dövriyyəsinin artırılması müzakirə edilib.

# Rusiyaya göndərilmiş malların ixrac dəyəri üstünlük təşkil edib




Cari ilin yanvar-avqust aylarında qeyri-neft-qaz məhsullarının ixracı ötən ilin yanvar-avqust ayları ilə müqayisədə faktiki qiymətlərlə 1,4 faiz, real ifadədə 12 faiz azalaraq 2179,9 milyon dollara bərabər olub.
Dövlət Statistika Komitəsindən bildirilib ki, qeyri-neft-qaz məhsulları üzrə ixracın dəyərində Rusiyaya (34,5 faiz), Türkiyəyə (18,1 faiz), Gürcüstana (7,2 faiz), ABŞ-a (5 faiz), İsveçrəyə (4,6 faiz), Ukraynaya (3,3 faiz), Qazaxıstana (3,1 faiz), Omana (3 faiz), Türkmənistana (2,9 faiz), Almaniyaya (1,6 faiz), Birləşmiş Ərəb Əmirliklərinə (1,5 faiz), Belarusa (1,3 faiz), Niderlanda (1,2 faiz), Qırğızıstana (1,1 faiz), Özbəkistana (1 faiz), İtaliyaya (1 faiz) göndərilmiş malların payı üstünlük təşkil edib.
İxracın strukturunda xam neft, təbii qaz və neft-qaz məhsullarının, meyvə və tərəvəzlərin, plastik kütlə və ondan hazırlanan məmulatların, kimya sənayesi məhsullarının, pambıq lifi və ipliyinin, alüminium və ondan hazırlanan məmulatların, qara metallar və onlardan hazırlanan məmulatların, alkoqollu və alkoqolsuz içkilərin, şəkərin, bitki yağlarının payı üstünlük təşkil edib.

# Kreditlərin əksəriyyəti banklar tərəfindən verilib




Mərkəzi Bankın təqdim etdiyi məlumata görə, cari il sentyabr ayının 1-nə ölkənin bank və digər kredit təşkilatlarının kredit portfeli əvvəlki ilin eyni dövrü ilə müqayisədə 23 faiz artaraq, milli valyuta ekvivalentində 27 milyard 649,4 milyon manat təşkil edib.
Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, ümumi kredit portfelinin 23 milyard 303,5 milyon manatı və ya 84,3 faizi uzunmüddətli kreditlərin payına düşüb.
Kreditlərin 94,3 faizi banklar, 5,7 faizi isə bank olmayan kredit təşkilatları və kredit ittifaqları tərəfindən verilib. Ödəmə vaxtı keçmiş kreditlərin məbləği il ərzində 11,5 faiz azalaraq 473,1 milyon manat olub və ümumi kredit portfelinin 1,7 faizini təşkil edib.

# Yeni dövrün neftindən faydalana biləcəyikmi?




Datalar yeni dövrün neftidir. Bəzi ekspertlər qeyd edirlər ki, dövlətdə yüksək post tutan gənc menecerlərin bir qismi məlumatlarla, datalarla işləyirlər. Bu, özlüyündə yaxşı haldır, əgər proses tam və mükəmməl olarsa.
Qeyd edək ki, datalar, məlumatlar düzgün qərarlar qəbul etmək üçün mühümdür. Amma bu məlumatlardan əlavə, menecerlərdə həm də "nəyi, niyə, nə vaxt, necə etmək" haqqında dərin bilgilər də olmalıdır. Peşəkarlıq, bax, burda lazımdır. Quru rəqəmlərlə manipulyasiya etməklə düz qərarlar vermək, yaxşı nəticələr əldə etmək mümkün deyil.
Əgər əldə olan dataları səmərəli emal edən alqoritmlər yoxdursa, bu dataların heç bir əhəmiyyəti olmaz. Datalar sanki, xammaldır, ilkin materialdır, "nəyi və necə etmək" isə alqoritmdir, düzgün qurulmuş bir prosesdir, səmərəli emal texnologiyasıdır.
Dataların bolluğu, alqoritmlərin azlığı, qərarların səhvliyi nəticələrin yoxluğunu yaradır. Bu, bir çox sahələrin idarə edilməsində özünü göstərir.
Mühüm olan xammalı səmərəli emal edən texnologiyanın mövcudluğudur. Hətta bəzi menecerlər özləri də etiraf edirlər: *"Biz nə etmək lazım olduğunu bilirik, amma necə etmək lazım olduğunu bilmirik"*.
Təbii. Bu, bir elmdir. Bunsuz son məqsədə çatmaq mümkün deyil. Proseslər düz qurulmadığı halda, qərarlar və nəticələr səhv olacaqdır. Bu mənada ilkin məlumatlar, müxtəlif datalar faydasız olacaqdır.
Statistika komitəsində ölkə həyatına dair çox məlumatlar, datalar var, lakin bu o demək deyil ki, onlar ölkəni idarə edə bilərlər. Onların vəzifəsi bu dataları vaxtında aidiyyatı üzrə mütəxəssislərə çatdırmaqdır.
Datalar yeni dövrün neftidir, ondan yüksək oktanlı benzin almaq üçün isə elm, peşəkarlıq, təcrübə, səriştə və mükəmməl texnologiyalar lazımdır. Bunları yaradan və icra edənlər insan kapitalıdır. Ona görə neft kapitalını insan kapitalına çevirmək istəyirdik. Bunu keyfiyyətli edə bilmədik deyə yeni dövrün neftindən də faydalana bilmirik.

**Dos.İlham Əhmədov**

# “Gənclik və maarifçilik” İctimai Birliyi layihəni başa çatdırdı

Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə "Gənclik və maarifçilik" İctimai Birliyi tərəfindən “Qarabağın biomüxtəlifliyi” adlı layihə həyata keçirilmişdir.
Məlumdur ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Qarabağ torpaqları canlı sərvətləri, biomüxtəlifliyi ilə birgə erməni işğalçılarından azad edilmiş, suverenliyimiz tam şəkildə bərpa olunmuşdur. Bununla da Qarabağ regionunda ermənilər tərəfindən törədilmiş ekoloji fəlakətin elmi əsaslı monitorinqi, azad edilmiş ərazilərin bioloji müxtəlifliyinin, torpaq və su ehtiyatlarının işğaldan əvvəlki və mövcud vəziyyətinin müqayisəli təhlili, bərpası, mühafizəsi və səmərəli istifadəsi üçün şərait yaranmışdır.
Qeyd edilən layihə çərçivəsində “Qarabağın biomüxtəlifliyi” adlı kitab nəşrə hazırlanmışdır.




Kitabın tərtibatçısı “Gənclik və maarifçilik” İctimai Birliyinin və layihənin rəhbəri biologiya üzrə fəlsəfə doktoru Vaqif Əmikişiyevdir.
Hazırlanmış kitabda Qarabağın zəngin və unikal biomüxtəlifliyi və işğal dövründə bu müxtəlifliyə qarşı törədilmiş vəhşi münasibətin izləri haqqında ölkə alimlərinin fikirləri, apardıqları tədqiqatların nəticələri populyar dildə şərh edilir, oxuculara tanıdılır. İki dildə (Azərbaycan və ingilis) nəşr ediləcək kitab Qarabağın biomüxtəlifliyi haqda məlumat almaq istəyən geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.
Kitab həmçinin Qərbdə son zamanlar güclənmiş antiazərbaycan kampaniyalarına cavab kimi də istifadə edilə bilər.

# Bakı-Tbilisi-Ceyhan ilə daşınan neftin həcmi açıqlanıb

Yanvar-sentyabr aylarında Azərbaycandakı magistral neft kəmərləri ilə nəql olunan neft 3,12 faiz azalaraq 28 milyon 859,8 min ton təşkil edib.
Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, nəqletmənin 75,1 faizi Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri (BTC) ilə həyata keçirilib və cari ilin yanvar-sentyabr ayları ərzində bu kəmərlə neft nəqli 4,3 faiz azalaraq 21 milyon 681,7 min ton olub.
Dövr ərzində BTC kəməri ilə nəql edilmiş neftin 81,5 faizini və ya 17 milyon 676,3 min tonunu Azərbaycanda hasil edilən neft, 18,5 faizini və ya 4005,4 min tonunu isə Türkmənistan və Qazaxıstandan daxil olan neft təşkil edib.



# Azərbaycanın neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi açıqlanıb



Cari ilin yanvar-sentyabr aylarında neft-qaz sektoruna 4083,3 milyon manatlıq vəsait yönəldilib.
Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, hesabat dövründə ölkənin neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 7,1 faiz azalıb.
Qeyd edək ki, 2023-cü ilin müvafiq dövründə sözügedən göstərici 4394,3 milyon manat səviyyəsində olub.







# “Qana ehtiyacı olan xəstələr üçün qan vermək həm vacib, həm də savab işdir”

**Qanın insan həyatında rolu və funksiyaları barədə Mərkəzi Gömrük Hospitalının Qan Bankı şöbəsinin rəisi, hematoloq Dr.Gülnar Xəlilova ilə müsahibəni sizə təqdim edirik.**



***- Gülnar həkim, insan orqanizmi üçün həyati əhəmiyyət daşıyan qan haqqında nə deyə bilərsiniz?***

- İnsan orqanizmi üçün ən mühüm komponentlərdən biri olan qan orqanizmin birləşdirici toxumalarına aid olan və bədəndə dövr edərək, müxtəlif funksiyaları yerinə yetirən mayedir. Qan limfa və hüceyrəarası maye ilə birlikdə orqanizmin daxili mühitini əmələ gətirir. Qan orqanizmin bütün toxumalarını və orqanlarını qidalandırır.

Orta hesabla yaşlı insanın bədənində qan ümumi kütlənin 6-8%-ini təşkil edir və ya bədən kütləsinin 1 kiloqramına 65-80 ml qan düşür.

***- Qan və onun komponentlərini tez-tez vermək olarmı?***

- Donorluğun müxtəlif növləri var - tam qan donorluğu və komponent donorluğu. Kişilər ildə 5, qadınlar isə 4 dəfədən çox olmayaraq, tam qan verə bilərlər. Qan verdikdən sonra donorun yenidən qan verə bilməsi üçün ən azı 60 gün keçməlidir. Qan verdikdən sonra donorun plazma verməsi üçün ən azı 30 gün keçməlidir.

Plazma verildikdən sonra donorun yenidən plazma və ya qan bağışlaması üçün ən azı 14 gün keçməlidir.

***- Bu həyati əhəmiyyətli funksiyalar hansılardır?***

- Qan həyat üçün o qədər zəruridir ki, tibb elminin inkişafından asılı olmayaraq, onun alternativi yoxdur. Qan tənəffüs sistemi üçün əvəzolunmaz vəzifəni - oksigenin ağ ciyərlərdən toxumalara və karbon qazının toxumalardan ağ ciyərlərə daşınmasını yerinə yetirir. Qan, eyni zamanda qida maddələrini və oksigeni hüceyrələrə çatdırır, qan hüceyrələri yad mikroorqanizmlərlə mübarizədə fəal iştirak edir. Qan toxumalardan maddələr mübadiləsi məhsullarını çıxarır, bədənin temperaturunu nizama salır.

***- Qan, onun komponentləri və preparatları hər il minlərlə hamiləlik və doğuş zamanı ağırlaşması olan anaları, körpələri, xəsarət alan insanları və digərlərini ölümdən xilas etməyə kömək edir. Hazırda bütün dünyada qanvermə aksiyaları keçirilir. Toplanan qandan necə istifadə olunur, bu proses necə tənzimlənir?***

- Hər il dünyada təxminən 117 milyon donor qeydiyyatdan keçir. Onların təxminən yarısı dünya əhalisinin 16 faizini təşkil edən yüksək gəlirli ölkələrdə yaşayır. Başqa sözlə desək, 62 ölkə könüllülərin təmənnasız verdiyi qan hesabına tam qan ehtiyatlarına malikdir. Ölkəmizdə də mütəmadi olaraq qanvermə aksiyaları təşkil olunur. Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin təşkilatçılığı ilə mütəmadi olaraq qanvermə aksiyaları təşkil olunur, qan xəstəliklərindən əziyyət çəkənlərə yardım məqsədilə artıq ənənəyə çevrilmiş könüllü qanvermə aksiyalarında insanlar fəal iştirak edirlər.



Həkim-hematoloqlar tərəfindən hər bir donorun sağlamlığı öncədən yoxlanılır, hərtərəfli tibbi müayinədən sonra onlardan qan götürülür.

***- Donor qanı kimlərə lazımdır?***

- Yer üzündə hər üçüncü insan həyatında ən azı bir dəfə qan donoruna ehtiyac duyur. Donor qanına ehtiyacı olan insanların bir neçə kateqoriyası var.

Elə insanlar var ki, qan preparatlarına ömürlük ehtiyacı var. Bunlar, ilk növbədə, hemofiliyalı xəstələrdir. Əgər kifayət qədər laxtalanma faktoru varsa və xəstə uşaqlıqdan adekvat dəstəkləyici terapiya alıbsa, deməli, onun adi bir insandan heç bir fərqi yoxdur. Qanın laxtalanma faktorları olmayan belə xəstələrin həyatı sadəcə mümkün deyil.

Xərçəng xəstələrinin daim donor qanına ehtiyacı var. Bədxassəli şişlərin müasir müalicəsi şiş hüceyrələrinin öldürülməsini nəzərdə tutur.

Cərrahi patologiyası olan xəstələr üçün də donor qanı lazımdır. Bunlar oynaqların dəyişdirilməsinə ehtiyacı olan, ürək cərrahiyyə əməliyyatları keçirən xəstələrdir.

Doğuş zamanı qadınlara tez-tez qanköçürmə tələb olunur. Çünki qadınların müəyyən bir hissəsi həmişə qan itkisi riski altındadır, bu da ana və uşağın həyatını xilas etmək üçün lazımi şəkildə kompensasiya edilməlidir.

***- Gülnar həkim, qanvermənin faydaları və zərərləri barədə nə deyə bilərsiniz? Kimlər donor ola bilər?***

- Sağlamlığı imkan verən hər kəs qan donoru ola bilər. Qanvermə çox humanist bir addımdır. Hər qan donorluğu çox qiymətli, həyat xilas edən bir hədiyyədir.

Qana ehtiyacı olan xəstələr üçün qan vermək həm vacib, həm də savab işdir. Bir çox xəstə var ki, qan çatışmazlığı səbəbindən həyatını itirir. Hətta elə xəstələr var ki, onlara vaxtaşırı qan köçürmək lazım gəlir. Qəza zamanı qan itirən xəstələrə və bəzi qan xəstəlikləri zamanı qanköçürməyə daha çox ehtiyac olur. Hər bir sağlam adam ildə 2 dəfə qan verə bilər.

Hər qanvermədən sonra orqanizmdə qan hüceyrələri təzələnir, qanda yağın miqdarı aşağı düşür, ürək xəstəlikləri riski 90% azalır. Qan vermək bədəni cavanlaşdırır. Sağlam həyat tərzi üçün ildə 1 dəfə qan vermək faydalıdır.

- Maraqlı müsahibəyə görə təşəkkür edirik.



**Müsahibəni apardı:**
**Dilarə Zamanova,**
**Mərkəzi Gömrük Hospitalının PR üzrə mütəxəssisi**

# “Bakcell”in baş icraçı direktoru “INMerge” İnnovasiya Sammitində çıxış edib



İnnovasiya və sürət lideri “Bakcell”in tərəfdaşı olduğu “INMerge” İnnovasiya Sammiti uğurla davam edir. Tədbirin ilk günündə “Bakcell”in baş icraçı direktoru Klaus Müller "Aparıcı telekom şirkətlərinin uğurlu strategiyaları" adlı panel müzakirəsinə qatılıb.

Tədbirdə Klaus Müller ilə yanaşı, “Vodafone Group”un regional direktoru Yohannes Hummer, “GSMA”nın strateji əlaqələr üzrə direktoru Tair İsmailov və “Silknet”in İT direktoru Cheibanny Nagi də iştirak edib. Sessiyada çıxışı zamanı Klaus Müller “Bakcell” həyata keçirdiyi innovativ layihələr və məhsullar, gələcək planlar, həmçinin şirkətin “Vodafone Group”la olan strateji tərəfdaşlığının əhəmiyyəti barədə ətraflı məlumat verib. Bildirilib ki, “Bakcell” və “Vodafone Group” arasında əməkdaşlıq ölkəmizdə abunəçilərə süni intellekt əsaslı innovativ həllər və texnologiyalar təqdim etməyə imkan verəcək. Qeyd olunub ki, “Vodafone Group”la əməkdaşlıq çərçivəsində artıq “Bakcell” Azərbaycanda ilk dəfə süni intellekt əsaslı tarif məsləhətçisini istifadəyə verib. İştirakçılara “Bakcell”in “Kapital Bank” və “Uber”lə birgə həyata keçirdiyi layihələr barədə məlumatlar təqdim olunub.

Bundan əlavə, “Bakcell” “INMerge” İnnovasiya Sammitində olan stendi qonaqların böyük marağına səbəb olub. Ziyarətçilər stenddə “Bakcell”in ultrasürətli şəbəkəsini sınaqdan keçirib, virtual reallıq (VR) texnologiyası, şirkətin müxtəlif məhsul və xidmətləri ilə tanış olublar.

Tədbir çərçivəsində, həmçinin “Bakcell”in süni intellekt dəstəkli çat-botu təqdim edilib.

Qeyd edək ki, oktyabrın 10-11-i tarixlərində keçirilən “INMerge” İnnovasiya Sammitinin məqsədi innovasiya ekosisteminin inkişafına töhfə vermək, startaplar və investorları bir araya gətirərək onlara əməkdaşlıq üçün fürsət yaratmaq, eləcə də innovasiya ekosisteminin bütün iştirakçıları arasında fikir və təcrübə mübadiləsi üçün platforma qurmaqdır.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Ədalət Muradov, Bəyalı Ataşov, Vahid Novruzov, Rəsul Balayev, Süleyman Qasımov, Zahid Məmmədov, Elşad Səmədzadə, Məhiş Əhmədov, Aydın Hüseynov, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. “İQTİSADİYYAT” qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, “Azərmedia” MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500